# Arif Babayevin "İnsan məskən salır" filmində cəmiyyət və şəxsiyyət problemi

60-cı illərin Bakısı... Doğma, tanış Bakı küçələri. Sadə geyimli, qayğısız sovet adamları.... Və təsadüfən küçədə rastlaşan iki dostun - 25 yaşlı gənclərin adi məişət söhbəti...

Kinorejissor Arif Babayevin birinci böyük ekran işi - "İnsan məskən salır" filminin ilk kadrları belə başlanır.

Gündəlik adi həyatın lövhələrini əks etdirən bu sakit kadrları gözlənilmədən coşub-daşan fırtınalı dənizin ümumi mənzərəsi və ön planda Xəzərin fəryadını batırmağa çalışan həyəcanlı sözlər əvəz edir: "Beş nəfərdirlər! Bəli, beş nəfər!!!" Fırtınanın əzəmətinə tab gətirməyib aşan buruğun ümumi planında dənizə aşan buruqla eyni bir vaxtda ürəyi dayanan bir insanın taleyinə Rekviem kimi səslənən musiqi ucalır. İlk dəqiqələrdə sezilməyən, lakin tədricən güclənən həyəcan, təlatüm Arif Babayevin məharətli montajı sayəsində növbəti kadrlarda üzə çıxıb partlayış effekti aşılayır... Həmin kadrlarda Qara Qarayevin vahiməli, iniltili musiqisi fonunda buruqlar arasında dərddən quruyub qalmış adamlar və adamların arasında bu dərdin səssiz şahidləri olan buruqlar vəhdət təşkil edir. İnsanları və buruqları tale birləşdirir - fırtınalı dənizdə buruqların yolunda canını qurban vermiş insanın taleyi.

Titr: -"İnsan məskən salır" və tənha insan, nikbin rejissor Arif Babayevin ilk böyük filmi başlayır. Azərbaycan kinosu tarixində Arif Babayev bəlkə də yeganə sənətkardır ki, ümumi və fərdi rejissor üslubu yoxdur. Bu baxımdan onu görkəmli İtaliya rejissoru, II Dünya Müharibəsinə qarşı Müqavimət Hərəkatından yaranan neorealizm ənənələrindən bəhrələnən və bu üsluba "Torpaq titrəyir" filmini çəkən, sonralar bu cərəyandan qopub müstəqil sənətkar kimi kino yolunu davam etdirən böyük Lukino Viskonti ilə müqayisə etmək olar. Həyatı boyu sayca çox az film çəkən bu sənətkarın nə üslub, nə kompozisiya etibarı ilə bir-birinə bənzəyən film-



ləri yoxdur. Onun hər bir filmi digərindən fərqlənir. Sanki 7-8 filmin hər birini tamam başqa səviyyəli, dünyagörüşlü, əqidəli, hətta müxtəlif yaş təbəqələrinə mənsub rejissorlar çəkib. 40 yaşından müstəqil kinorejissor kimi çalışan Arif Babayev "Uşaqlığın son gecəsi"ndə uşaqlaşır, "Alma-almaya bənzər"də məzələnir, "Birisi gün gecə yarısı"nda şahmatı yaxşı bilən oyuncu kimi oynayır, "Bizi bağışlayın"da böyüyür, müdrikləşir, əzab çəkir... Özü də katarsisdən keçir, bizi də buna məcbur edir...

Müdrik idi Arif Babayev. Eyni zamanda uşaq idi. Sadəlövh, qəlbi təmiz idi və bu insani keyfiyyətlərini qəhrəmanlarına da şamil etmişdi.

"İnsan məskən salır" filmində bu uşaqlıq, daha doğrusu sadəlövhlük dənizi fəth etməyə gəlmiş 25 yaşlı mühəndis Ramizin kəskin sözlərində və ətrafdakılara etinasız münasibətində hiss olunur.

İmran Qasımovun dialoqları lakonikdir. Kino dili üçün ən münasib olan bu dialoqlar nə qədər yığcam və konkret olsalar da qəhrəmanın xarakterini elə ilk sözlərdən açır. Fırtınada ölən Cavadın yerinə usta təyin olunmuş Ramiz hələ briqada üzvləri ilə tanış olmamış mərhumun günahkar olduğunu bildirir: "Günah onun özündədir!... Bəs siz harada idiniz?" və bu konkret münasibət elə ilk anlarda onunla çiyin-çiyinə işləyən adamlarla Ramiz arasında uçurum yaradır. İnsan cəmiyyətdə təkləşir və bu günahın daşıyıcısı özüdür.

Bu mənada A.S.Makarenkonun "Şəxsiyyət və cəmiyyət" haqqında söylədiyi fikir Ramiz kimi insanların təkləşməsinin səbəbini açıqlayır: "Yalnız öz perspektivləri ilə maraqlanan şəxs, bəzən güclü insan təsiri bağışlasa da, ətrafdakılarda heç də gözəl şəxsiyyət təsəvvürü oyatmır...".

Ramiz ölən Cavadın yerini tutmağa - iş yoldaşları tərəfindən sevilməyə can atır. Reallıqda isə bunun tam əksi ilə üzləşir.

Vaxtilə sevgisinə xəyanət etdiyi qızın - Ədilənin də bu kollektivdə olması onun vəziyyətini daha da mürəkkəbləşdirir. Ədilə ilə Ramizin qısa və kəskin dialoqları filmin dramaturji gərginliyini artıran güclü vasitələrdir. Ədilə kəskin və qətiyyətlidir. Ramiz Ədiləyə münasibətində çaşqın, ziddiyyətli və həyəcanlıdır.

Arif Babayev Azərbaycan kinosunun bir çox rejissorları kimi aktyorlarla işləməyi bacarmır. Lakin başqalarından üstünlüyü düzgün aktyor seçimində, portret-obraz yaratmaq qabiliyyətindədir.

Rejissor lazım olanda insan münasibətlərinin kəskinləşdiyi anlarda kameranı maksimal dərəcədə aktyorun üzünə yaxınlaşdırıb bir anlıq da olsa ön planda portret-obrazın həmin andakı vəziyyətini göstərməkdən çəkinmir. Bu üslub onu İsveç kino məktəbinin klassik nümayəndələri Morits Stillerlə və daha çox aktyor-rejissor Viktor Şostromla doğmalaşdırır. Bəlkə də, Arif Babayev Viktor Şostromun səssiz kino nümunələrini görməmişdi. Lakin səssiz kino yaradıcılığını təbii fəlakətlər fonunda xarakteri tədricən açılan, təbiətin şıltaqlıqlarından asılı olaraq dəyişən; - sərtləşən və yumşalan insanların portretlərini yaradan Viktor Şostrom da portret obrazların mahir yaradıcısı və ifaçısı

idi.

"İnsan məskən salır"da ilk məhəbbətinin xəyanətindən sınmayıb sərtləşən və dəfələrlə fırtınalı dənizin caynağından sağ çıxıb bərkiyən Ədilənin qətiyyətli xarakteri Ramizə yönəlmiş replikalarda üzə çıxır.

Ədilə: - "Sən hara gəldiyini hələ də bilmirsən!" və yaxud: - "Sən hələ getməmisən?!"

Eyni konkretlik və qətilik elə ilk anlardan kollektivin sərt münasibətindən çəkinib geriyə - şəhərə qayıtmaq istəyən Ramizin sözlərində ifadə olunub: -"Kater nə vaxt gələcək?".

Lakin Ramiz inadkardır. İnadkar olmasaydı aspiranturanı yarımçıq qoyub Neft daşlarında işləməyə gəlməzdi. Bir də ki, o, ondan üz çevirən tərs insanlara kim olduğunu, nəyə qadir olduğunu sübut etməyə çalışır. Buna görə də onu şəhərə aparacaq kateri gözlədiyi halda geri dönür, qətiyyətlə qapını açıb yoldaşlarından: - "Artıq çarpayı var?" - soruşub cavab gözləmədən telefona yaxınlaşır, nömrəni yığıb hamının eşidəcəyi ahəngdə: "Briqadanı qəbul edirəm!" - deyir. Lakin insan cəmiyyətə can atırsa onun qayda-qanunlarını da qəbul etməlidir. A.Babayev və İ.Qasımovun qəhrəmanı bu qanunları qəbul etmək istəmir. Özü öz qanunlarını qəbul etdirmək istəyir. O, hələ də ölən usta Cavaddan güclü olduğunu sübut etmək üçün yoldan çıxıb az qala dənizə yuvarlanacaq traktoru yoldaşlarının gözü önündə cəsarətlə yola çıxarır... Lakin briqada - cəmiyyət onun bu "canfəşanlığına" biganə qalır... Çünki, hələ də onun etinasızlıqla "hər ölümə qəhrəmanlıq deməzlər" replikası Cavadı sevən iş yoldaşlarının qəlbinə toxunub, bu söz yarası yaddan çıxmır.

"İnsan məskən salır"da təbiəti və xüsusən Bakının dar, əyri-üyrü doğma küçələrini hədsiz sevən Arif Babayevin ən uğurlu peyzajı möhtəşəm dəniz meşəsi və onun ağacları olan şiş uclu buruqlardır. Bu meşəni canlandırıb obrazlaşdıran isə Qara Qarayevin səssizliyi yaran mis sədalı musiqisidir. Hər an tufana çevrilə biləcək böyük dəniz və tənha insanlar... Ekran çərçivəsinə sığışmayan bu möhtəşəm tənhalığı pozan Ramizin etirafı: - "Nina, o, gəlməyəcək! O, həlak olub!"

Əlbəttə, "İnsan məskən salır"ın sosializm realizminin geniş yayıldığı sovet mərhələsində çəkildiyini nəzərə alsaq filmin ümumi quruluşuna sünilik gətirən plakat sözləri və bəzən qəhrəmanların inandırıcı olmayan hərəkətlərini izah etmək olar. Məsələn, filmdə plakat sözlər: "Heç kəs, heç kəsi əvəz etmir", "Həyatda elə şeylər var ki, ən dəqiq anketləri alt-üst edir", "Necə ola bilər ki, insan getsin, özündən sonra iz qoymasın" və s. ... çoxdur.

Filmin sonunda sevgilisi fırtınada həlak olmuş hamilə Ninanın həmişəlik Neft daşlarında qalmaq (Nina Rusiya şəhərlərinin birindən Cavadın ölümü ərəfəsində Bakıya gəlir) istəyi də inandırıcı görünmür. Sevdiyi adam dənizdə ölüb, onu bu dənizə nə bağlaya bilər? - Sevgilisinin briqada yoldaşları haqda xatirələri ... və ... Cavadın ölümünün şahidi olan dəniz?...

Sosializm realizmi üçün xarakterik olan mütləq mənfi obrazın olması prinsipi də "İnsan məskən salır"da zəif alınıb. Günlərini əyləncələrdə və dostu Ramizin dediyi kimi, "hər dəfə bir gözəllə" keçirən Muradın Ninanı bir dəfə görməklə ona aşiq olması, hamilə olduğunu bilən kimi dərhal üz çevirməsi inandırıcı deyil.

Əslində filmdə insanın qarşı-qarşıya dayandığı cəmiyyətin nümayəndələri, yəni briqada üzvlərinin - 5 nəfərin (Ədilə istisna olmaqla) portreti də səthi və epizodik verilib. "İnsan təkdir və ona qarşı dayanan cəmiyyət isə kollektiv olduğu üçün güclüdür" prinsipindən irəli gələrək cəmiyyətin qrup halında verilməsi bu baxımdan bir tərəfdən filmin kompozisiya quruluşuna bütövlük gətirib dramaturji xətti möhkəmləndirirsə, digər tərəfdən kollektivin əksər üzvlərinin fərdilikdən məhrum olmaları, yəni eyniləşmə prinsipi (Hamının eyni ideyaya, eyni amala xidmət etməsi) cəmiyyətlə insan qarşıdurmasında hansı tərəfin daha ədalətli olmasında şübhə yaradır. Belə çıxır ki, insan ya ümumi axına tabe olmalı, ya da çıxıb getməlidir, üçüncü yol yoxdur... Ramiz dənizi - və bu dənizdə fırtınalara sinə gərən mərd insanlar kollektivini seçir və ... onların qanunlarını qəbul edir...

"İnsan məskən salır" - İnsan cəmiyyətdə özünə yer tapır... Film başlandığı proloq epizodu ilə tamamlanır. Neft daşlarında işləməyə gənc mühəndis gəlir. Bu Ramiz deyil. Amma onu da Ramizin taleyi gözləyir. O da Ramiz kimi inamla və konkret danışır və o da burada asanlıqla məskən salacağına arxayındır.

Ümumiyyətlə, filmdə oxşar başlanğıc epizodlarla oxşar final epizodlar metafora təşkil edir: Əvvəl usta Cavadın fırtınada həlak olması, sonda usta Ramizin fırtınaya düşüb möcüzə nəticəsində sağ qalması, əvvəldə gənc mühəndis Ramizin Neft daşlarına gəlməsi, sonda daha bir gənc mühəndisin eyni istəkdən bu yerlərə gəlməsi zəncirvari bağlılıq təşkil edir. Və bu metaforik oxşar epizodları qəhrəmanın retrospektiv xəyalları, tək qalan anlarda (usta Cavadın portreti önündə və ya xəstəxanaya düşəndən sonrakı sayıqlamalarda) etirafları bir dramaturji xətdə birləşdirir.

Arif Babayevin qəhramanı cəmiyyətlə "dil" tapıb məskən sala bilir... öz yaradıcısından fərqli olaraq... Tək idi Arif Babayev... Cəmiyyətlə ünsiyyətdə olsa da... təkliyə daha çox üstünlük verirdi. Öz qəhrəmanından fərqli olaraq fərdiliyini ömrünün sonuna qədər qoruyub saxladı Arif Babayev.

**Həmidə Ömərova,**
**respublikanın əməkdar artisti**